Azərbaycan Respublikasının Prezidenti
yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Azərbaycan Tarixçiləri
İctimai Birliyi

İrəvan
XANLIĞI





# Erməni vandallarının yox etdiyi XAN SARAYI

Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur

İdeya müəllifi,
layihənin rəhbəri,
ön sözün müəllifi və
elmi redaktor: **Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı Laureatı*

Rəyçi: **Güntəkin Nəcəfli**
*tarix üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Mehri Xanbabayeva**
*riyaziyyat üzrə fəlsəfə doktoru*

**Nazim Mustafa.**
***İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı.***
Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016. - 48 s.

ISBN 978-9952-8268-3-8

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2016

Azərbaycan
Respublikasının
Prezidenti

**İLHAM ƏLİYEVİN**

təşəbbüsü
ilə yazılmışdır.

Bilirsiniz ki,
alimlərimiz mənim təşəbbüsümlə
İrəvan xanlığı haqqında böyük
elmi əsər yaratmışlar. Bunun çox böyük
əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox
faktoloji və elmi məsələləri əks etdirir.
Hesab edirəm ki, daha geniş
auditoriyaya çatdırmaq üçün
kiçik həcmli broşürlər də buraxılmalıdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsindəki nitqindən.*
*7 iyul 2014-cü il*



# Oxuculara

İrəvan şəhəri, onun şanlı qəhrəmanlıq səhifələri ilə zəngin olan tarixi keçmişi hər bir azərbaycanlı üçün doğma və əzizdir. Tarixin bütün dövrlərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan ölkənin tarixi keçmişində dərin iz qoymuşdur.

XIX əsrin əvvəllərində Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunana qədər İrəvan Azərbaycanın çox mühüm dövlətçilik mərkəzlərindən biri idi. Avtoxton əhalisi Azərbaycan türklərindən ibarət olan bu şəhər bütün orta əsrlər boyunca Azərbaycanın *əmirlik*, *bəylərbəyilik* və *xanlıq* mərkəzlərindən biri olmuşdur. Müstəqil Azərbaycan dövlətlərindən biri olan İrəvan xanlığının (1747-1828) paytaxtı olduğu dövrdə İrəvan Cənubi Qafqazın, həmçinin bütün Yaxın və Orta Şərqin ən mühüm ticarət, sənətkarlıq, mədəniyyət və siyasi mərkəzlərindən birinə çevrilmişdi.

Beynəlxalq ticarət yollarının qovşağında yerləşən İrəvan şəhərində Azərbaycan xalqı zəngin mədəniyyət, o cümlədən nadir memarlıq inciləri yaratmışdır.

Qədim İrəvan şəhərinin tarixi yerlərindən biri məşhur İrəvan qalası idi. İrəvan qalası Azərbaycan Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətainin göstərişi ilə səfəvi sərkərdəsi Rəvanqulu xan tərəfindən XVI əsrin əvvəllərində (1509-1517) tikdirilmişdir.





İrəvan qalası qədim tarixi abidələrlə, nadir memarlıq kompleksləri ilə olduqca zəngin idi. İrəvan qalasındakı *Xan sarayı*, yaxud *Sərdar sarayı* Azərbaycan memarlığının şah əsərlərindən biri idi. Bu nadir tarixi abidəni 1578-ci ildə Azərbaycan Səfəvi dövlətinin İrəvan bəylərbəyi Toxmaq xan tikdirmişdi.

Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra çar Rusiyası erməniləri qacarlar İranı və Osmanlı imperiyası ərazisindən Cənubi Qafqaza köçürdükdən sonra Azərbaycan xalqına qarşı etnik təmizləmələr, zorakı deportasiyalar və soyqırımları dövrü başlandı. Nəhayət, 1918-ci il mayın 29-da Şimali Azərbaycanda – keçmiş İrəvan xanlığının ərazisində erməni dövləti yaradıldı.

Erməni vandalları ötən 180-200 il ərzində tarixi Azərbaycan torpaqları olan İrəvan xanlığı və Zəngəzur ərazisində etnik təmizləmə aparıb ancaq ermənilərin yaşadığı monoetnoslu dövlət yaratdılar. Çar Rusiyasından və sovet-bolşevik rejimindən hər cür kömək alan ermənilər bununla kifayətlənməyib Azərbaycan xalqına məxsus olan yüzlərlə yaşayış məskənlərini, tarixi abidələri, o cümlədən qalaları, memarlıq komplekslərini, məscidləri, minarələri, qəbiristanları məhv etdilər və bütün tarixi adları dəyişdirdilər.

İrəvan şəhərinin tarixi simasını dəyişdirib “erməni şəhərinə” çevirmək siyasəti yeridən vandallar bu qədim Azərbaycan şəhərinin bütün tarixi abidələrini məhv etdilər.

Erməni vandalizminin soyqırımına məruz qalmış abidələrdən biri də Azərbaycan memarlığının nadir incisi olan **Xan sarayı**, yaxud **Sərdar sarayıdır.**



Özgə torpağında özünə "Vətən" yaradan, bütün dünyaya özlərini "mədəni", "sivilizasiya keçmiş xalq", türkləri isə "yırtıcı", "vəhşi" kimi təqdim edən erməni vandalları yüz illərlə öz varlığını qoruyub saxlamış bu nadir memarlıq incisini dağıdıb yerində **konyak zavodu** tikdilər.

Erməni vandallarının dağıdıb məhv etdiyi qədim İrəvan, onun bütün tarixi türk-müsəlman abidələri, o cümlədən *Xan sarayı (Sərdar sarayı)* Azərbaycan xalqının tarixi yaddaşında yaşayır.

Oxuculara təqdim olunan bu kitabçada Azərbaycan xalqına məxsus olan bu nadir tarixi abidənin – Xan sarayının, yaxud Sərdar sarayının acı taleyindən bəhs olunur.

*"**İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı**" kitabçası çapa hazırlanarkən yaxından köməklik göstərdiyinə görə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşlarına təşəkkur edirik.*

**Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*Dövlət Mükafatı laureatı*





# İrəvan xanlarının sarayı

1578-ci ildə Azərbaycan Səfəvi dövlətinin İrəvan bəylərbəyi Toxmaq xan İrəvan qalasının içərisində Xan sarayı inşa etdirmiş, qala ilə üzbəüz, Zəngi çayının sağ sahilində böyük bir bağ saldırmışdır. Həmin bağ tarix ədəbiyyatında Xan bağı kimi qeyd olunur. XVII əsrin 40-cı illərində Cənubi Qafqazda səfərdə olmuş məşhur türk səyyahı Evliya Çələbi İrəvan qalası və *"behiştə bənzər"* Toxmaq xan sarayı haqqında maraqlı məlumatlar verir.[1]



***İrəvan qalasının maketi.*** *İrəvan Tarix Muzeyi.*

[1] Çələbi Evliya. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr. Hazırlayan Seyidağa Onullahi). Bakı,1997, s.51.



Səfəvi sərkərdəsi Əmirgünə xan Qacarın (1604-1625) İrəvanın hakimi olduğu dövrdə qala və Xan sarayı (Sərdar sarayı) daha da abadlaşdırılmış və möhkəmləndirilmişdi. 1679-cu il zəlzələsindən sonra İrəvan qalası, o cümlədən Xan sarayı Zal xan (1679-1688) tərəfindən yenidən bərpa edilmişdi.

İrəvan əyalətinin Osmanlı hakimiyyəti altına keçdiyi dövrdə Rəcəb paşa (1725-1728) tərəfindən İrəvan qalasındakı saray kompleksində xeyli quruculuq və abadlıq işləri görülmüşdü.

İrəvan xanı Hüseynəli xan Qacarın (1759-1783) və oğlu Məhəmməd xanın (1784-1805) hakimiyyəti dövrləri İrəvan şəhərinin və qalasının çiçəklənmə dövrü hesab edilir. Hüseynəli xan Qacar Xan sarayını daha da təkmilləşdirmək üçün dövrün məşhur memarı Mirzə Cəfər Xoylunu İrəvana də-




***İrəvan qalasının planı.***
*(Bax: Утверждение русского владычества на Кавказе. Том 4. часть 1. Тифлис, 1906, с. 306).*





vət etmişdi. Xan sarayı Mirzə Cəfər Xoylunun rəhbərliyi altında yenidən qurulmuşdu.

1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan Qacar Xan sarayının Güzgülü salonunu və Xan bağındakı Yay imarətini inşa etdirmiş, bununla da bu möhtəşəm tikili memarlıq baxımından monumental saray kompleksi kimi tamamlanmışdır. Saray kompleksi 1810-cu ildə Hüseynqulu xanın hakimiyyəti dövründə əsaslı təmir edilmiş və ona bir sıra yeni tikililər əlavə edilmişdir. Təbriz rəssamlıq məktəbinin nümayəndəsi Mir Əbdürrza Xan sarayının divarlarındakı rəsmləri 1815-ci ildə tamamlamışdır.

Bütün dövlət atributlarına malik İrəvan xanlığının dörd bayrağı 1827-ci ildə İrəvan qalasının süqutu zamanı




***İrəvan xanlığının bayraqları.*** *Azərbaycan Milli Tarix Muzeyi*



Rusiya qoşunlarının əlinə keçmişdir. Həmin bayraqlardan ikisi hazırda indiki Azərbaycan Milli Tarix Muzeyində saxlanılır. Bayraqlardan biri üçkünc, digəri isə dördkünc formadadır.*

İrəvan qalasının və Xan sarayının çar Rusiyası işğalından sonra çəkilmiş cizgilərinin (planlarının) bir qismi hazırda İrəvan Tarix Muzeyində saxlanılır. Xan sarayının 1837-ci ildə tərtib edilmiş mükəmməl planında göstərilən miqyasa əsasən, sarayın təqribən 1 hektar ərazini əhatə etdiyi aydın olur. Saray İrəvan qalasının şimal-qərb hissəsində yerləşirdi və qaladan saraya qapı açılırdı.

Rəsmi tədbirlər üçün nəzərdə tutulmuş ikimərtəbəli saray binası trapesiya formasında (ölçüləri 36x35x31x25 m) olmuşdur. Sarayın ortasında şahın təntənəli qarşılanması üçün böyük eyvan olmuşdur. Eyvanın qurtaracağında Zəngi çayına açılan və rəngli şüşələrlə bəzədilmiş, şəbəkələrlə bir-birindən ayrılan yataq yerləri – taxçalar düzəldilmişdi. Xan sarayının Güzgülü zalında xanın taxtının önündə müalicəvi xüsusiyyətə malik olan damarlı əqiq daşlardan ulduzvarı hovuz düzəldilmişdi. Ortasında kiçik fəvvarə olan hovuz rus rəssamı Q.Qaqarinin çəkdiyi Güzgülü zalın rəsmində də öz əksini tapmışdır. Həmin hovuz hazırda İrəvan Tarix Muzeyində nümayiş etdirilir. Bunlardan əlavə, Xan sarayına bitişik daha iki bina – biri

---

* *Üçkünc bayrağın ölçüləri 145x261x217 sm-dir və 1825-1826-cı illərdə hazırlanmışdır. Dördkünc bayrağın ölçüləri 156x156 sm-dir, 1823-1824-cü illərdə hazırlanmışdır.*

xanın yaxın ətrafının yaşadığı bina, digəri yardımçı tikili olmuşdur.[2]

Xan sarayı və xanın hərəmxanası vahid memarlıq kompozisiyası təşkil edirdi. Hərəmxana sarayla kiçik dəhliz vasitəsilə birləşirdi. Düzbucaqlı formada olan hərəmxananın uzunluğu 200 fut (1 fut = 0,3048 m), eni təqribən 125 fut olmuşdur. Hərəmxananın çoxlu otaqları və dəhlizləri var idi. İrəvan qalasının Rusiya qoşunları tərəfindən işğalından sonra hərəmxana hospitala çevrilmişdi. Xanın hərəmxanasının mərmər üzlük çəkilmiş, mozaikalı ornamentlərlə bəzədilmiş hamamı da öz təmtərağı ilə seçilirdi. Hərəmxananın geniş yay hovuzu var idi. Hovuzun uzunluğu 15 sajen (1 sajen = 2,1336 m), eni 4 sajen, dərinliyi 3 arşın (1 arşın = 71, 12 sm) idi. Bu tikililər qaladakı digər çoxsaylı tikililərlə birgə *"İrəvan şəhərinin yenidən qurulması"* zamanı plana salınaraq ermənilər tərəfindən qəsdən sökülüb məhv edilmişdir.[3]

Mütəxəssislərin qənaətinə görə, İrəvan Xan sarayı memarlıq forması, biçimi, quruluşu, daxili həcminin həlli və bədii tərtibatına görə Şərq memarlığının şah əsərlərindən sayılan, 1483-cü ildə Ağqoyunlu hökmdarı Sultan Yaqub tərəfindən Təbrizdə, 1669-cu ildə Şah Süleyman səfəvi dönəmində İsfahanda inşa edilən *"Həşt behişt"*[*] adlandırılan saray-komplekslərinin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirmişdir.

[2] Арутюнян В., Асратян М., Меликян А. Ереван. Москва: Стройиздат, 1968, с. 33-34.

[3] Акопян Т.Х. Очерк истории Еревана. Ереван, 1977, с.129-130.

* "Səkkiz cənnət", yəni 8 qatlı cənnət.





*İrəvan qalasının ümumi görünüşü. 1796-cı il.*

Digər maraqlı cəhət bundan ibarətdir ki, həm relyefinin seçilməsi baxımından, həm də tikintinin memarlıq həlli baxımından Xoy, İrəvan və Şəki xanlarının sarayları bir-birini sanki təkrar etmişlər. Bu fakt sübut edir ki, hər üç saray eyni memarlıq üslubunda inşa edilmişdir. İrəvan xanı Hüseynəli xan Xan sarayında yenidənqurma işləri apararkən Xoy xanı olan qohumu Əhməd xana (1763-1786) müraciət etmişdi. Əhməd xanın hakimiyyəti dövründə Xoy şəhərində ətrafı dərin xəndəklə əhatə olunan ərazidə – relyefinə görə İrəvan qalasının yerləşdiyi əraziyə bənzər yerdə





qala və onun içərisində saray inşa edilmişdi. Sarayın memarı Mirzə Cəfər Xoylu idi. Əhməd xan memar Mirzə Cəfər Xoylunu qohumu Hüseynəli xanın xahişi ilə İrəvana göndərmişdi ki, Xan sarayında aparılacaq tikinti işlərinə rəhbərlik etsin.

İrəvan Xan sarayı ilə Şəki Xan sarayının Güzgülü salonlarının tamamilə bir-birinə bənzəməsi aydın surətdə sübut edir ki, onları inşa edən ustalar eyni memarlıq məktəbinin nümayəndələri olmuşlar.

Fransız səyyahlarından Jan Batist Tavernye 1655-ci ildə, Jan Batist Şardən isə 1673-cü ildə İrəvan şəhərində olmuş, onun qrafik təsvirlərini çəkmişlər. Həmin təsvirlərdə İrəvan qalası və qalanın içərisindəki tikililər, o cümlədən Xan sarayı əks olunmuşdur.

J.Şardən incəsənəti, elmi sevən İrəvan xanı Səfiqulu xanın sarayda qonaqların şərəfinə təşkil etdiyi məclisləri ətraflı nəql edir. O, məclisdəkiləri əyləndirmək üçün güləşçilərin, rəqqasların, müğənnilərin və çalğıçıların necə ustalıqla öz məharətlərini göstərdiklərini təsvir edir. Müəllif musiqiçilərin və rəqqasların mimika hərəkətlərilə göstərdikləri tamaşanı Şərqin operası adlandırmışdır.[4]

1817-ci ildə Aleksey Yermolovun başçılığı altında Irana səfər edən Rusiya nümayəndə heyətinin tərkibində İrəvan xanlığında olmuş alman əsilli hərbçi **Moritz fon Kotzebue** İrəvan qalasındakı Sərdar sarayını və Sərdar bağındakı Yay köşkünü ətraflı təsvir etmişdir. Kotzebue yazır: "Sarayın divarlarından müxtəlif formalı xırda güzgülər, rəngbərəng

[4] Şardən Jan. Parisdən İsfahana səyahət. Bakı: Elm, 1994, s.23-28.



güllər və kiçik şəkillər asılmışdır... Girişin qarşı tərəfində şah (yəni Fətəli şah) və oğlu Abbas Mirzənin portretləri ilə birlikdə ov səhnələrini əks etdirən şəkillər və bir neçə qadın şəkli diqqəti cəlb edir... Zalın açıq tərəfi ilə üzbəüz, içərisində ağ mərmərdən kiçik hovuz və fəvvarələr olan pavilyon var. Bu pavilyon açıqdır və təzə salınmış gözəl bir bağa baxır. Zəngi çayı düz pəncərənin altından axır: onun sahilləri boyunca hündür ağaclar cərgələnir və bir neçə tağdan ibarət olan yaraşıqlı daş körpünün digər qurtaracağı Ararat (Ağrı - N.M.) dağına söykənmiş sahilə aparır”[5]... Daha sonra Kotzebue Xan sarayı ilə üzbəüz, Zəngi çayının sağ sahilində salınmış Xan bağındakı Yay köşkündən bəhs edir. Onun yazdığına görə, Asiya memarlıq üslubunda inşa edilən köşkün ortasında fəvvarəli mərmər hovuz vardır və su şırnaqlarının üzərindən asılmış balaca zənglərin çıxardığı incə səslər xanın zövqünü oxşayırdı.[6]

Bu qiymətli məlumatdan aydın olur ki, hələ XIX əsrin əvvəllərində İrəvan xanının köşkündə müasir anlamda musiqili fəvvarə mövcud olmuşdur. İrəvan xanları asudə vaxtlarını həmin köşkdə keçirər, musiqiçiləri dinləyərmişlər. Sözün həqiqi mənasında gözəlliyinə görə mükəmməl incəsənət əsəri hesab edilən güllü-çiçəkli Xan bağında xarici qonaqlar üçün də məclislər təşkil edilərmiş.

---

[5] Kotzebue by Moritz Von. Narrative of a journey into Persia, in the suite of the imperial Russian embassy, in the year 1817. London, 1819, p.112-113.

[6] Kotzebue by Moritz Von. Göstərilən əsəri, s.121-122.







***İrəvan xanının Yay köşkü.***
*(Bax: Kotzebue by Moritz Von. Narrative of a journey into Persia, in the suite of the imperial Russian embassy, in the year 1817. London, 1819, p.126a)*

Tanınmış Rusiya yazıçısı və diplomatı **Aleksandr Sergeyeviç Qriboyedov** Rusiyanın İrandakı nümayəndəliyinin katibi kimi, 1819-cu ilin fevralında İrəvan xanının sarayında olmuşdur. Qriboyedovun yazdığına görə, bu ölkədə[*] Allahdan sonra birinci, qacarlar dövlətində isə nüfuzuna görə üçüncü adam hesab edilən sərdar Hüseynqulu xan mövcud ənənəyə görə, qonaqların şərəfinə ziyafət təşkil

* Yəni İrəvan xanlığında.





***Qriboyedovun "Ağıldan bəla" əsərinin 1827-ci ilin dekabrında İrəvanda Xan sarayının Güzgülü zalında tamaşaya qoyulması.***
*Ermənistan Milli Tarix Muzeyi.*

etmişdir. Qriboyedovun ağlına belə gəlməzdi ki, 1827-ci ilin oktyabrında İrəvan qalasının süqutundan bir qədər sonra məhz həmin Güzgülü salonda onun məşhur *"Ağıldan bəla"* əsərini rus zabitləri onun özünün iştirakı ilə tamaşaya qoyacaqlar. Qriboyedov Hüseynqulu xanın qonaqları qəbul etdiyi Güzgülü salonu ətraflı təsvir etmişdir. O, salonun döşəməsinin bahalı, naxışlı xalçalarla döşəndiyini, tavanının və salonunun divarlarının "yapon naxışları" ilə bəzədildiyini, bütöv divar boyu olan pəncərəsinin çərçivəsinin şəbəkə üslubunda işlənildiyini və onlara rəngli şüşələrin pərçimləndiyini, salonun girişi ilə üzbəüz buxarının yerləşdiyini, qabarıq formalı tavanın kiçik güzgü parçaları ilə örtüldüyünü, bütün divarların iki cərgə ilə şəkillərlə bəzədildiyini yazır.[7]

[7] Полное собрание сочинений А.С.Грибоедова. Том 1, С.Петербург, 1839, с. 43-44.

İrəvan xanlığı Rusiya işğalından sonra bir sıra Avropa və Rusiya tədqiqatçılarının diqqət mərkəzində olmuşdur. Fransız səyyahı, geoloq və rəssamı **Fredrik Dübua de Monpere** 1833-cü ildə Qafqaza səyahət etmiş və 1839-1843-cü illərdə Parisdə onun 6 cilddən ibarət **"Qafqaz ətrafına səyahət"** kitabları işıq üzü görmüşdür. Müəllif, həmçinin həmin kitablara əlavə olaraq xəritələr, planlar və rəsmləri əhatə edən 5 hissədən ibarət atlaslar da çap etdirmişdir. Qravüraçı rəssam Nikole Erkül Fredrik Monperenin çəkdiyi rəsmlərin qravüralarını hazırlamışdır. Həmin atlasların 3-cü hissəsində *Sərdar sarayının* Güzgülü zalının interyerinin, Güzgülü zalın divarlarındakı rəsmlərin və divar naxışla-



***Xan sarayının Güzgülü zalından fraqmentlər.***
*(Bax: Frederic Dubois de Montpereux. Voyage autour du Caucase, chez les tcherkesses et les abkhases, en Georgie, en Armenie et en Crimee: a 6 v.: Paris, 1843).*





***İrəvan xanının hərəmxanasının həyəti.***
*(Bax: Frederic Dubois de Montpereux. Voyage autour du Caucase, chez les tcherkesses et les abkhases, en Georgie, en Armenie et en Crimee: a 6 v.: Paris, 1843, Atlas 3, v. 27).*

rının, sərdar Hüseynqulu xanın hərəmxanasının şəkilləri öz əksini tapmışdır.[8]

İrəvan qalasının Rusiya qoşunları tərəfindən işğalından sonra Xan sarayında əvvəlcə **İrəvan müvəqqəti idarəsi**, sonra isə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış **"Erməni vilayəti"nin administrasiyası,** daha sonra **İrəvan quberniya idarəsi** yerləşmişdi.

İmperator I Nikolayın rus qoşunlarının hücumlarına 23 ildən artıq müddətdə tab gətirən, "alınmaz qala" kimi şöhrət qazanan əfsanəvi İrəvan qalasını görmək arzusu

[8] Atlas. Voyage au Caucase chez les tcherkesses et les abkhases en Colchide, en Géorgie, en Arménie et en Crimée par Frédéric Dubois de Montpéreux. Paris, 1843.





1837-ci ildə gerçəkləşmişdi. İrəvana səfər etmiş I Nikolay Xan sarayında gecələmiş, ondan xatirə qalsın deyə, Güzgülü zalın divarına öz adını yazmışdı. Sonradan divarın həmin hissəsi çərçivəyə alınmışdı. I Nikolay Güzgülü zalda İrəvan şəhəri əhalisinin müxtəlif təbəqələrdən olan nümayəndələrini qəbul etmişdi.

1843-cü il avqust ayının 27-də İrəvan qalasında olmuş alman səyyahı **Avqust fon Haksthauzen** də Xan sarayını ətraflı təsvir etmişdir. Haksthauzen yazır: **"Keçmiş İrəvan sərdarının sarayının yerləşdiyi qala tənəzzüldədir, İran**



***Xan sarayının Güzgülü zalından fraqment.***
*Foto Dmitri Yermakov.*



**əyanlarının**[*] **sarayları xarabalıqlar içərisindədir, məscidlərdən biri yunan-rus kilsəsinə, digəri silah anbarına çevrilmişdir. Sərdar sarayı salamatdır, lakin onun əlavə tikilisi olan hərəmxana hospitala çevrilmişdir.** Arxitektura baxımından saray o qədər də əzəmətli deyil... Lakin bütün bunlarla yanaşı, bəzək-düzəkləri, pəncərələri, qapıları, tağları gözəldir. Müasir Asiya tikililərini Əlhambra kimi[**] təsəvvür etmək olmaz. Yalnız Sərdar sarayının qəbul zalı əzəmətlidir. Onun həyətə baxan tərəfi açıqdır və divar əvəzinə gözəl şəbəkə ilə bağlanmışdır, hansı ki, onu bütövlükdə və ya qismən çıxartmaq mümkündür. Həmin şəbəkə götürüldükdə qəbul zalı böyük və açıq qalereyaya çevrilir. Zalın arxa divarında onun üçdə ikisini tutan rəngli şüşələrlə bəzədilmiş böyük pəncərə vardır ki, onun da hər iki tərəfində çox da böyük olmayan kabinetlər vardır. Zalın ortasında çox da böyük olmayan fontanlı hovuz vardır. Divarlar və tavan güzgülər və tablolarla bəzədilmişdir."[9]

1864-cü ildə İrəvan qalasının hərbi-istehkam qalası kimi istifadəsinə son qoyulmuşdur. **1865-ci ildə İrəvan qalasının ərazisinin bir hissəsini Nerses Tahiryan adlı erməni taciri satın alaraq sonradan orada şərab zavodu – yəni indiki konyak zavodunu inşa etdirmişdir.** Hazırda

---

* Yəni İrəvan xanlığı əyanlarının.

** *XIII əsrdə İspaniyanın Qranada şəhərində tikilmiş və müsəlman tarixi-memarlıq abidəsi olaraq restavrasiya edilərək hazırda muzey kimi mühafizə edilən memarlıq kompleksi nəzərdə tutulur*

[9] Гагстгаузен Август. Закавказский край. Санкт-Петербург, 1857, часть I, с.230-231.








***Ermənilər tərəfindən dagıdılmış Xan sarayının ərazisində inşa edilmiş "tikililər".***

İrəvan konyak zavodunun ərazisinin bir hissəsi Xan sarayı kompleksinin ərazisinə düşür.

1880-ci ilin oktyabrında məşhur Rusiya arxeoloqu qrafinya **Praskofya Aleksandrovna Uvarova** İrəvan qalasında olmuş, uçulub dağılan Xan sarayının vəziyyətini təsvir etmişdir. Erməni tədqiqatçısı Yervand Şahəziz 1931-ci ildə İrəvanda çap edilən "Qədim İrəvan" kitabında P.Uvarovanın Qafqaz ekspedisiyasının nəticələri haqqında dərc etdirdiyi "Qafqaz. Yol qeydləri" (Moskva, 1887) kitabının birinci cildindən aşağıdakı sitatı gətirir: "**Qala divarlarının və qüllələrinin içərisində Zəngi çayının altından yeraltı keçidi, fontanlı həyətləri, hamamları, hərəmxanası və iki məscidi olan Sərdar imarəti* yerləşir. Bütün-**

* Yəni Xan sarayı kompleksi.



**lüklə sırf Şərq üslubunda naxışlarla, güzgülərlə və rəsmlərlə bəzədilmiş, sanki bəzəkli çay qutusuna bənzər Sərdar imarətindən yalnız qəbul zalı salamat qalıb. Zalın ortasında mərmər fontan vardır və onun pəncərəsi rəngarəng ağac şəbəkələrlə bəzədilmişdir. Oradan Zəngi çayına, Ararat** (Ağrı - N.M.) **və Ələyəz dağlarına çox gözəl mənzərə açılır. Zal şimal tərəfdən açıq imiş və pərdələrlə örtülürmüş. Hansı ki, pərdənin izləri, halqaları və asılqanlarının yeri həm tavanda, həm də bünövrədə görünür. Zalın hər iki tərəfində kiçik otaqlar vardır və zirzəmisində buzxana yerləşir. Sarayla Zəngi çayını birləşdirən yeraltı keçiddən yalnız onun qapısı və daş pilləkənləri qalmışdır. Halbuki, bir qədər əvvəl həmin keçiddən çayın altı ilə qarşı tərəfə keçmək olardı"**[10].

Məşhur Britaniya səyyahı, coğrafiyaşünası və ictimai xadimi **Henri Linç**[*] 1893-cü ilin avqustundan 1894-cü ilin mart ayınadək və 1898-ci ilin avqustunda Şərqi Anadoluda və Cənubi Qafqazda səfərdə olmuşdur. O, səfərlərinin nəticəsi olaraq ikicildlik "Armenia. Səyahətlər və tədqiqatlar" əsərini yazmışdır. Müəllif 1901-ci ildə Londonda çap edilən əsərinin I cildində indiki Ermənistan ərazisində gördüklərini ətraflı təsvir etmişdir.

---

[10] Երվանդ Շահազիզ: Հին Երևանը: Երևան, 1931, էջ 170; (Yervand Şahəziz. Qədim İrəvan. İrəvan, 1931, s.170).

* *Linçin nənəsi Bağdadda yaşayan bir ermənininin qızı olmuşdur. İngilis qoşunlarının zabiti olan babası Bağdadda olarkən onunla tanış olmuş və sonradan evlənmişlər.*







***Xan sarayının qəbul otağı.***
*(Bax: Linch, H. F. B. Armenia. Travels and Studies. London, 1901, p.216a).*

Linçin təsvir etdiyi Xan sarayının divarlarındakı rəsmlər və pəncərə şəbəkələri sarayın XIX əsrin ikinci yarısında aparılan restavrasiyadan sonrakı dövrünə təsadüf edir. Bunu nəzərdə tutan Linç yazır ki, kətan üzərində çəkilmiş rəsmlər orijinal deyil. H.Linç Xan sarayının Güzgülü salonunu belə təsvir edir: **«Şəbəkəli tağların saysız-hesabsız güzgüləri ətrafa büllur kimi şölə saçır. Salonun tavanı başdan-başa bəzəyə qərq olmuşdur. Tavanın aşağısı bolluca nəbati naxışlarla bəzənib ki, bunlar da, əsasən, süsən və qızıl güllərdən ibarətdir».**



H.Linç Güzgülü zalın divarlarında kətan üzərində işlənmiş 8 tablo gördüyünü və onlardan ikisinin – İrəvan xanı Hüseynqulu xanın və onun solunda farsların qəhrəmanı Fəraməzin tablolarının öz kitabına daxil etdiyi şəkildə əks olunduğunu yazır. Müəllif divarlardakı digər portretlərdə Fətəli şahın, onun oğlu Abbas Mirzənin, İrəvan xanı Hüseynqulu xanın qardaşı Həsən xanın, qəhrəman döyüşçü personajları olan Zöhrabın və Rüstəm Zalın, habelə cəngavər bir qadının (amazonkanın) obrazlarını əks etdirən portretlərinin təsvir olunduğunu yazır.[11]

Həmin dövrdə təsviri incəsənətin ən geniş yayılmış və inkişaf etmiş sahəsi memarlıq abidələrində öz əksini tapan divarüstü boyakarlıq olmuşdur. Avropa səyyahlarını və rəssamlarını valeh edən, tərif dolu təəssüratlarını yazmağa vadar edən də Xan sarayının memarlığından daha çox, onun zəngin bədii tərtibatı, divarlarını bəzəyən portret və süjetli kompozisiyalardan ibarət monumental boyakarlıq əsərləri olmuşdur.

İrəvan Xan sarayının daxili tərtibatı haqqında şahidlərin təsvirləri, rus rəssamı akademik Vladimir Moşkovun, etnoqraf və rəssam knyaz Qriqori Qaqarinin, fransız səyyahı və rəssamı Dübua de Monperenin çəkdikləri rəsm əsərləri, fotoqraf Dmitri Yermakovun, ingilis səyyahı Henri Linçin çəkdikləri fotolar sarayın bədii tərtibatı, divar rəsmlərinin məzmunu, forma və üslubu, professional sənətkarlıq və estetik xüsusiyyətləri haqqında fikir söyləməyə imkan verir.

[11] Lynch H.F.B. Armenia. Travels and Studies. Vol I, p.216-217.

Sənətşünaslıq doktoru Kərim Kərimov İrəvandakı Xan sarayının müxtəlif rəssamlar və fotoqraflar tərəfindən çəkilmiş şəkilləri əsasında sarayın memarlıq xüsusiyyətlərini və bədii tərtibatını sənətşünaslıq nöqteyi-nəzərindən təhlil etmişdir. K.Kərimov yazır ki, sarayın Güzgülü zalının və Yay köşkünün divarlarını bəzəyən ilkin rəsmlər həmin dövrdə mövcud olmuş kanonlara və ənənəyə əsaslanır. Sarayın



***Xan sarayının qəbul otağı.*** *Rəssam Qriqori Qaqarin.*





***Xan sarayının interyeri***.
*(Bax: Frederic Dubois de Montpereux. Voyage autour du Caucase, chez les tcherkesses et les abkhases, en Georgie, en Armenie et en Crimee: a 6 v.: Paris, 1843).*

divarlarının paneldən yuxarı səthindəki tağçalarda və tağçalararası pannolarda, bir qayda olaraq, həndəsi və stilizə edilmiş nəbati motivlərdən ibarət dekorativ kompozisiyalar, gül və çiçəklərin, heyvan və quşların canlı, real təsvirləri verilmişdir. Sarayın bədii tərtibatının əsasını portret təsvirləri və çoxfiqurlu süjetli kompozisiyalar təşkil edir. K.Kərimov daha sonra yazır ki, XIX əsrin ikinci yarısında həyata keçirilən təmir işlərinədək Xan sarayının bədii tərtibatında portret rəsmləri və onların arasında Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında ov və döyüş, kef məclisləri və məhəbbət səhnələrini əks etdirən





süjetli kompozisiyalar daha çox olmuşdur. Həmin kompozisiyaların birində Rüstəm Zalın gənc döyüşçü ilə vuruşması, digərində onun tanımadan öz oğlunu öldürməsi, başqa bir rəsmdə Rüstəmin İsfəndiyarla döyüşü, daha bir başqasında onun divlə vuruşması və s. təsvir edilirdi.[12]



***İrəvan Xan sarayının Güzgülü salonu.*** *Rəssam Qriqori Qaqarin.*
*(Bax: Ալիշան Ղեվոնդ. Այրարատ. Վենետիկ, 1890.*
*Alişan Ğevond. Ayrarat (erməni dilində). Venesiya, 1890, s. 309).*

[12] Kərimov Kərim. “İrəvan sərdarının sarayı” məqaləsi. “Yeni fikir” qəzeti, 18 oktyabr 1995-ci il.



***Xan sarayının Güzgülü zalından Ağrı dağına açılan mənzərə.***
*(Bax: Alişan Ğevond. Ayrarat (erməni dilində). Venesiya, 1890, s. 310).*

İrəvan Xan sarayındakı təsviri sənət nümunələrinin təhlili göstərir ki, istər portret rəsmlərində, istərsə də süjetli və dekorativ kompozisiyalarda ənənəvi Azərbaycan - Şərq motivləri ilə yanaşı, həmin dövrün Qərbi Avropa və Rusiya bədii yaradıcılığının mütərəqqi ənənələri öz təsirini göstərmişdir. Bu təsir XIX əsrin ikinci yarısında Xan sarayında aparılan təmir-bərpa işlərindən sonra daha aydın şəkildə özünü büruzə vermişdir.

İrəvan qalasının hərbi istehkam obyekti kimi istifadəsinə son qoyulmasından sonra "baxımsızlıq üzündən"

yararsız hala düşən, nəmişlikdən divar rəsmləri korlanan, karniz və tavanın güzgüləri qopub tökülən **Xan sarayının Güzgülü zalının əsaslı təmiri üçün dəfələrlə Rusiya dövlət xəzinəsindən vəsait ayrılmışdı. İrəvan qubernatorunun vəsatəti əsasında Qafqaz Canişinliyi Sərdar zalının təmiri üçün 1867-ci ildə 1200 rubl, tufan nəticəsində qopmuş dəmir örtüyün bərpası üçün 1871-ci ildə 1112 rubl 28 qəpik, zalın uçmuş divarlarının bərpası üçün 1874-cü ildə 354 rubl 86 qəpik, Qafqaz canişinin sərəncamı ilə Sərdar zalının əsaslı təmiri üçün 1880-ci ildə 1978 rubl 78 qəpik, İrəvan şəhər idarəsi isə həmin məqsədlə 1770 rubl vəsait ayırmışdı.**[13]



***"Baxımsız qalmış" İrəvan Xan sarayı.***
*XIX əsrin sonlarında. Foto Dmitri Yermakov.*

[13] Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов. 1801-1917 гг.. Ереван, 1978, с.286-288.



Xan sarayında bərpa işlərinin bir qismini Azərbaycan dəzgah boyakarlığının banisi hesab edilən Mirzə Qədim İrəvani (1826-1875) həyata keçirmişdir.* Mirzə Qədim Xan sarayının Güzgülü zalındakı portretlərin və ornamental kompozisiyaların əksəriyyətini bərpa etmişdi. Görünür, 1867-1874-cü illərdə Xan sarayında dəfələrlə aparılan bərpa işlərini Mirzə Qədim İrəvani həyata keçirmişdir.[14]

Sarayın bərpadan əvvəlki və sonrakı tərtibatına aid əyani materialın müqayisəli təhlili göstərir ki, 1868-ci ildə divar rəsmlərinin ancaq bir hissəsi, yəni portretlər və dekorativ pannolar bərpa edilmişdir. Ov, döyüş və məhəbbət səhnələrini bərpa etmək mümkün olmadığından, onların yerində yeni ornamental-dekorativ pannolar çəkilmişdi. Portretləri bərpa edərkən Mirzə Qədim İrəvani işə mexaniki yanaşmamış, yeni texniki vasitələrlə əvvəlkilərdən fərqlənən yeni əsərlər yaratmışdır. Böyük ölçülü kətan üzərində yağlı boyalarla işlənilib sonradan divara yapışdırılmış bu əsərlər, əslində Azərbaycanda realist monumental boyakarlığın ilkin nümunələri idi. Məhz buna görədir ki, bu əsərlər

---

* İrəvan şəhərində anadan olan Mirzə Qədim Tiflisdə gimnaziya təhsili almışdı. Fars, rus və fransız dillərini mükəmməl öyrənən Mirzə Qədim İrəvana qayıtdıqdan sonra ömrünün sonunadək poçtda teleqrafçı vəzifəsində çalışmışdır. Mirzə Qədimin atası Məhəmməd Hüseyn məşhur şəbəkə ustası olmuşdur. Mirzə Qədimdə rəssamlığa meyil hələ Tiflisdə gimnaziyada oxuduğu vaxt yaranmışdı. Əvvəlcə şüşə və parça üzərində şəkillər çəkən Mirzə Qədim sonralar portret və ornamental kompozisiyalar ustası kimi məşhurlaşmışdı.

[14] Əfəndi Rasim. Azərbaycan incəsənəti. Bakı, 2007, s.114-115.





yüksək qiymətləndirilir və "Asiya boyakarlığının ən yüksək nümunəsi" hesab edilir.[15]



***Xan sarayının divarlarındakı rəsmlər.***
*Rəssam Qriqori Qaqarin.*
*(Bax: Живописная Россия. Том 9, СПб. М., 1883, c.200 a).*

Memarlıq tarixi üzrə tanınmış Azərbaycan alimi L.S.Bretanitskinin verdiyi məlumata görə, Sərdar sarayının Güzgülü zalının şimal istiqamətindəki açıq interyerinin pərdələrinin məhv edilməsindən sonra, 1886-cı ildə həyata keçirilən təmiri zamanı zalın interyeri Şəki Xan sarayının

[15] Kərimov Kərim, göstərilən məqaləsi.



vitrajına (qapıya, pəncərəyə və sairəyə salınan rəngli şüşələrdən düzəldilmiş şəkil və ya naxışlar) bənzər şəbəkə üslubunda, lakin daha kobud formada qapı və pəncərələrlə əvəz edilmişdir. İrəvan Xan sarayının Güzgülü zalının Qriqori Qaqarin və Dübua de Monpere tərəfindən çəkilmiş rəsmləri ilə, sarayın XIX əsrin ikinci yarısında aparılan bərpa işlərindən sonra çəkilmiş fotoları arasında fərqlər aydın görünür. Qriqori Qaqarinin rəsmlərindəki portretlər və divar rəsmləri daha zəngin, daha nəfis və daha rəngarəng təsir bağışlayır.



***İrəvan Xan sarayı.***
*Sarayın daxili görünüşü. 1892-ci il.*
*(Bax: Известия Императорской Археологической Комиссии. Выпуск 46. С.Петербург, 1912, с. 80).*

Xan sarayının qorunub saxlanılması məsələsi Rusiya İmperator Arxeoloji Komissiyasının (İAK) restavrasiyaya həsr olunmuş xüsusi iclaslarında iki dəfə müzakirə edilmişdir. **6 oktyabr 1910-cu ildə keçirilən birinci müzakirənin protokolundan aydın olur ki,** İAK 15 iyul 1910-cu il tarixdə Qafqaz hərbi dairəsinin mühəndis idarəsinə Sərdar sarayı barəsində sorğu göndərmişdir. Bununla bağlı İAK-a göndərilən cavabda, İmperator Moskva Arxeoloji Cəmiyyətindən xahiş edilmişdir ki, sarayın qorunması və bərpası üçün vəsait tapsın. Lakin bu məsələ həll edilməmişdir. **Birinci müzakirənin protokolunda qeyd edilir ki, Hüseynqulu xanın dövründə saray müasir görkəmə malik olmuşdur. Lakin rusların hakimiyyəti dövründə isə saray tədricən tənəzzülə doğru gedir. Müzakirənin nəticəsi olaraq İmperator Arxeoloji Komissiyası qərara alır ki, saraya texniki baxış haqqında akt tərtib edilsin və məşhur şərqşünas Nikolay Marrdan xahiş edilsin ki, saraya yerində baxsın.**[16]

**İkinci müzakirə 17 may 1912-ci ildə keçirilmişdir.** Məsələ ilə bağlı iki məruzə dinlənilmidir. Birinci məruzə Qafqaz Hərbi Dairəsinin baş komandanının daxili işlər nazirinə göndərdiyi 18 aprel 1912-ci il tarixli müraciəti ilə bağlı verilən rəylə əlaqədar olmuşdur. Məsələ belə qoyulmuşdu ki, **Sərdar sarayı ya təmir edilərək İmperator Arxeoloji Komissiyasının ixtiyarına verilsin, ya da yoldan**

[16] Известия Императорской Археологической Комиссии. Выпуск 39. С. Петербург, 1911, с. 29-32.





***İrəvan Xan sarayının Güzgülü zalı.*** *XX əsrin əvvəli.*

**keçənlər üçün təhlükəli olduğu nəzərə alınaraq sökülmək şərtilə satılsın.** Gündəliyin ikinci məsələsi kimi, İmperator Arxeoloji Komissiyasının 6 oktyabr 1910-cu il tarixli iclasının



***"Baxımsız qalmış" İrəvan Xan sarayı xarabalıqlarının Zəngi çayı tərəfdən görünüşü.***
*(Bax: Yervand Şahəziz.*
*Hin Yerevan, 1931, s. 155).*





qərarına əsasən, Nikolay Marrın 1911-ci ilin iyul ayında Xan sarayına keçirdiyi baxışın nəticəsi haqqında yazdığı rəy müzakirə edilmişdir. Nikolay Marrın məruzəsində qeyd edilirdi ki, o, iki gün ərzində Sərdar sarayına baxış keçirmiş və bəzi şəxslərlə görüşərək onun üçün qaranlıq olan məsələlərə aydınlıq gətirmişdir.

Akademik Nikolay Marr Sərdar sarayının dağılmasında həm zəlzələnin, həm ötən illərin təsirinin olduğunu qəbul etməklə yanaşı, **həm də son iki onillikdə bu gözəl abidənin qorunmasına cüzi də olsa diqqət yetirilmədiyini, əks prosesin getdiyini, yəni sarayın tez bir zamanda dağıdılmasında marağın olduğunu, özü də insan əli ilə dağıdıldığını qeyd etmişdir.**

**Güzgülü zaldakı 7 portretin aqibətini təsvir edən akademik Nikolay Marr qeyd edir ki, onlar divardan vəhşicəsinə qoparılıb çıxarılmış və kənarlarının kiçik parçaları qalmışdır. Nikolay Marr zalın tavanındakı, həmçinin karnizindəki güzgülərin daşla vurulub sındırıldığını, sındırılmış şüşə parçalarından döşəmədə ayaq qoymağa yer olmadığını yazır. Məruzəçi ürəkağrısı ilə qeyd edir:**

***“Zalın hər iki tərəfindəki yan otaqlar ayaqyoluna çevrilmişdir. Halbuki, həmin otaqlardan birində vaxtilə imperator I Nikolay gecələmiş və öz dəst-xətti ilə adını divara yazmışdır”.***





***Xan sarayının Güzgülü zalının yan otaqlarından biri***. *Foto.*

Xan sarayının yerləşdiyi ərazidə inşa edilən şərab zavodunu 1898-ci ildə Nerses Tahiryandan rus şərab istehsalçısı Nikolay Şustov satın almış və Xan sarayının tikililərinin sökülməsi hesabına zavodun ərazisini daha da genişləndirmişdi. Bununla bağlı **Nikolay Marr öz məruzəsində qeyd edir ki, Sarayın şimal-qərb hissəsinin altı Şustovun konyak zavodu tərəfindən qazılmışdır. Bunun nəticəsində Saraya bitişik əlavə tikili uçub dağılmışdır.**

**Akademik Nikolay Marr 1910-cu ildə Güzgülü zalın Zəngi çayı tərəfə baxan hissəsinin şüşəbəndinin darmadağın edildiyini, zalın döşəməsinin açıq-boz rəngli plitələrinin, cilalanmış mərmərdən düzəldilmiş fəvvarəli hovuzun da vəhşi-**





cəsinə sındırıldığını qeyd edir. Akademik Nikolay Marr Sərdar sarayının nümunəsində bütün Cənubi Qafqazda müsəlman tarixi abidələrinin qorunmasına laqeyd münasibət bəslənildiyini yazır. Daha sonra Nikolay Marr Sərdar bağındakı Yay köşkünün vəziyyətini ürəkağrısı ilə təsvir edir. O, Yay köşkündən ancaq bir xatirə qaldığını yazır. Məruzəçi İrəvan şəhər rəhbərliyinin 1892-ci ildə Yay köşkünü partlatmaq qərarına gəldiyini və bu işin barbarcasına həyata keçirilməsini podratçılara həvalə etdiyini qeyd etmişdir. İmperator Arxeoloji Komissiyasının iclasının sonunda akademik Nikolay Marr qəti şəkildə bəyan etmişdir ki, saray həd-



***İrəvan Xan sarayının xarabalıqları. 1911-ci il.***
*(Вах: Известия Императорской Археологической Комиссии. Выпуск 46. С.Петербург, 1912, с.76-77).*



**dindən artıq baxımsız vəziyyətdədir, lakin onun tezliklə dağılmaq təhlükəsi yoxdur.**

Akademik Marr ürəkağrısı ilə yazırdı: ***"Görünür, biz yerli qədim abidələrin sistematik dağıdılması ilə üzləşmişik. Təbiidir ki, bu dağıdıcı fəaliyyət son nəticədə qədim abidələrin izlərini itirməyə yönəlib".*** Akademik N.Marrın "izləri itirilən qədim adidələr" sözləri, təbii ki, İrəvan quberniyası ərazisində azərbaycanlılara məxsus olan və erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılan tarixi abidələrə aid idi. Təbii ki, heç bir xalq



***İrəvan Xan sarayı Güzgülü zalının Dmitri Yermakov tərəfindən bayırdan çəkilmiş fotosu.***
*(Вах:Акопян Тадевос. Очерк истории Еревана. Ереван, 1977, с.108).*

öz maddi-mədəniyyət abidələrini barbarcasına dağıtmaz, onların yer üzündən silinməsinə çalışmaz.[17]

Sənətşünas alim Nikolay Miklaşevskayanın yazdığına görə, Sərdar sarayı 1914-cü ildə tamamilə dağıdılmışdır və Mirzə Qədim İrəvaninin XIX əsrin ikinci yarısında sarayın divarlarında 2x1 m ölçüdə çəkdiyi portretlər divardan qopardılaraq Tiflisdəki Hərbi Tarix Muzeyinə təhvil verilmişdir. Həmin portretlər Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Gürcüstan SSR Dövlət Muzeyinə, sonradan isə Gürcüstan İncəsənət Muzeyinə verilmişdir.[18]

Məşhur rus fotoqrafı Dmitri Yermakovun XIX əsrin 80-ci illərində çəkdiyi İrəvan Xan sarayının bütün detallarını



***İrəvan qalasının və Xan sarayı xarabalıqlarının görünüşü. 1915-ci il.*** *Foto.*

[17] Известия Императорской Археологической Комиссии. Выпуск 46. С. Петербург, 1912, с. 75-81.

[18] Искусство Азербайджана. Том VII, Баку, 1959, с.51.



əhatə edən fotoşəkilləri hazırda Gürcüstan Dövlət Muzeyində fotoqrafa aid kolleksiyada saxlanılır.

1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində - keçmiş İrəvan xanlığının ərazisində erməni-daşnak hökuməti qurulmuş və yerli azərbaycanlılara qarşı soyqırım həyata keçirilmişdir. İrəvan şəhərində azərbaycanlılara məxsus olan bir çox tarixi-memarlıq abidələri də məhz həmin dövrdə yer üzündən silinmişdir.

İrəvanda Xan sarayının üslubunda inşa edilmiş tarixi-memarlıq abidələrindən biri də Pənah xan Makinskinin evi idi. İrəvan şəhər Dumasının deputatı, kollec müşaviri Süleyman xanın oğlu Pənah xana məxsus yaşayış kompleksi onun adını daşıyan meydanda (keçmiş Ter-Qukasov küçəsində, indiki Nalbandyan küçəsi, 19) yerləşirdi. Kompleksə xanın ikimərtəbəli evi, mətbəx, anbar, ayrıca həyətlərdə nökərlər üçün birmərtəbəli ev və tövlələr daxil idi. Pənah xanın evi İrəvanda dövlət tərəfindən qorunan memarlıq abidələri siyahısına salınsa da, XX əsrin 60-cı illərində onun da aqibəti azərbaycanlılara məxsus digər tarixi-memarlıq abidələri kimi olmuş, dağıdılaraq yer üzündən silinmişdir.[19]

İrəvan Xan sarayına bənzər komplekslər – Bakıda Şirvanşahlar sarayı, Şəkidə Xan sarayı kompleksləri bu gün də yaşayır, keçmişdən bu günə soraq verirlər. İrəvanda isə Azərbaycan xalqının tarixi keçmişindən soraq verən bircə dənə də olsun tarixi abidə qalmamışdır.

İrəvan rəsmiləri bu gün xaricdən gələn qonaqlara və tədqiqatçılara "qədim erməni torpağında" və onun "qədim

[19] htt://www.iatp.am/old_yerevan.







***Müasir erməni vandalları tərəfindən yer üzündən silinmiş tarıxi abidə: Pənah xan Makinskinin evi.***
*(Bax: Акопян Т.Х. Очерки истории Еревана. Ереван, 1977, с. 124).*

paytaxtında" yaşı 200 ildən yuxarı bircə dənə də olsun tarixi abidə göstərə bilmirlər.

Əsrlər boyunca yaranmış və azərbaycanlılara məxsus olan tarixi-memarlıq abidələrinin izini silən ermənilər, indi biznes şəbəkəsi qurmaq məqsədilə "İrəvan qalası" layihəsi hazırlamışlar. Şəhər ətrafında - keçmişdə Təzəkənd adlanan, indi isə ermənilərin Noraqyuğ adlandırdıqları massivdə 184 hektar ərazidə inşa edilməsi nəzərdə tutulan layihənin ilkin smeta dəyəri 6-7 milyard ABŞ dolları civarındadır. Həmin layihədə ticarət obyektləri, karvansaralar, Şərq hamamları ilə yanaşı, kiçik bir "Sərdar sarayı" inşa edilməsi də nəzərdə tutulur. Həmin layihə başa gəlsə belə, onun tarixi-memarlıq baxımından heç bir dəyəri olmayacaqdır. Çünki Şərq memarlığının nadir incisi hesab edilən İrəvan xanlarının saray kom-



pleksi erməni vandallarının dağıdıcı fəaliyyətləri nəticəsində yüz ildir ki, tarixin yaddaşına köçüb.

İrəvan Xan sarayı *(Sərdar sarayı)* erməni vandalları tərəfindən yer üzündən silinsə də, günümüzədək gəlib çatan ilk mənbələrin məlumatları, arxiv sənədləri, rəsm əsərləri, fotolar qədirbilən insanlara İrəvan Xan sarayı kompleksinin tam mənzərəsini yaratmaq imkanı verir.

***İrəvan Xan sarayını bəzəyən nadir sənət inciləri:***









1



2



3

***1. Fətəli şahın Güzgülü zaldakı portreti.*** *Gürcüstan İncəsənət Muzeyi.*
***2. Zöhrabın Güzgülü zaldakı portreti.*** *Gürcüstan İncəsənət Muzeyi.*
***3. Hüseynqulu xanın Güzgülü zaldakı portreti***. *Gürcüstan İncəsənət Muzeyi.*
***4. Rüstəm Zalın Güzgülü zaldakı portreti.*** *Gürcüstan İncəsənət Muzeyi.*
***5. Həsən xan Qacar.*** *http://sardari-iravani.org/FamilyHistory/familyhistory1.htm*







4



5












İrəvan
XANLIĞI

# Erməni vandallarının yox etdiyi

# XAN SARAYI

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi “İrəvan xanlığının tarixinə dair 4 adda broşürlərin nəşr olunması” kitabının çapı” layihəsi çərçivəsində Azərbaycan Tarixçiləri İctimai Birliyi tərəfindən nəşr edilmişdir.

**Azərbaycan Tarixçiləri İctimai Birliyi**
AZ1065, Bakı., B.Bağırova küç., 7, m.29.
E-mail: mxanbabayeva@mail.ru. Mob. (055) 353-02-33
Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutunun mətbəəsində çap edilmişdir.
Bakı şəh., H.Cavid pros., 125.